

Bizim gənc nəslimiz bilikli, dünyaya açıq olmalıdır, dünyada gedən proseslərə bələd olmalıdır, izləməlidir. Ən qabaqcıl texnologiyalar Azərbaycana gəlməlidir. Bir sözlə, ölkənin inkişafı məhz bu istiqamətdə davam etməlidir. Dünyada uğur qazanmış, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, o inkişafın, tərəqqinin əsas səbəbləri təbii ehtiyatlar deyil, yaxud da hansısa başqa iqtisadi nailiyyətlər deyildir. Məhz bilik, məhz savad, yeni texnologiyalar – bunlar ölkəyə uğur, rifah gətirir, inkişaf, müasirlik gətirir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

2006/2007-ci TƏDRİS İLİNDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ
PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli fərmanına uyğun olaraq **qərara alıram**:

1. 2006/2007-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticə göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abdullayev Tural Qasım oğlu
Ağayev Fariz Füzuli oğlu
Ahəngari Nərmin Ənvər qızı
Axundzadə Qorqud Tahir oğlu
Allahverdiyev Elnur Elman oğlu
Allahverdiyev Pərviz Qədir oğlu
Balacanov Elvin Paşa oğlu
Bilalov Tural Bilal oğlu
Cəfərova Aynur Tofiq qızı
Dadaşov Elxan Eldar oğlu
Elbəyiyev Sərxan Eldar oğlu
Ələkbərov Həsən Xanlar oğlu
Əliyev Elşən Məhəmməd oğlu
Əliyev Eşqin Akif oğlu
Əliyeva Gülnar Məhəmməd qızı
Əliyeva Günay Arif qızı
Əliyeva Günay Azər qızı
Əmiraslanlı Bəxtiyar Ramazan oğlu
Əsədov İslam Nadir oğlu
Əsgərov Fərid Fuad oğlu
Əsgərov Murad Hikmət oğlu
Fərzullalı Günel Zahid qızı
Gülməmmədov Raul Vaqif oğlu
Həsənəliyev İlkin Haqverdi oğlu
Həsənova Cəmilə Simran qızı
Hüseynov Azər Sərvər oğlu
Hüseynova Cavidan Natiq qızı
Xankişiyev Rüfət Əliqismət oğlu
Xudiyev Emin Fazil oğlu
İbrahimov Elçin Çağlar oğlu
İbrahimov Elgün Vidadi oğlu
İbrahimova Günay Mehman qızı
İdayətova İlhamə İlham qızı
İmamverdiyeva Ülkər Nadir qızı
İmanova Günel Seyhun qızı
İsgəndərov Tural Mahir oğlu
İsmayılov Elvin Yaşar oğlu
İsmayılov Lütfəli Rəhman oğlu
İsmayılov Nurlan Əlövsət oğlu
İsmayılov Vüqar Firudin oğlu
İsmayılova Nərgiz İzzət qızı
İsmayılzadə Pərvanə İsmayıl qızı
Kazımov Nurlan Eldəniz oğlu
Kərimov Səbuhi Mustafa oğlu
Kərimova Gülgəz Natiq qızı
Lətifova Nigar Etibar qızı
Mehdiyev Araz Azər oğlu
Mehdiyev Vüsal Məriş oğlu
Mehralıyeva Ülviyyə Rafiq qızı
Məlikov Arif Məmmədağa oğlu
Məmmədquliyev Araz Cəbrayıl oğlu
Məmmədli İlkin Fəxrəddin oğlu
Məmmədli İlkin Samir oğlu
Məmmədov Ramin Rafael oğlu
Məmmədov Rəvan Ehtibar oğlu
Məmmədov Şahlar Elman oğlu
Məmmədova Aytəkin Natiq qızı
Məmmədova Aytən Etibar qızı
Məmmədova Ceyran Əlirza qızı
Məmmədova Çinarə Xankişi qızı
Məmmədova Xuraman Vaqif qızı
Məmmədova Leyli Zaur qızı
Mənəfli Əhməd Samid oğlu
Mirzəyev Murad Rəfail oğlu
Mirzəyev Vahid Zahid oğlu
Mövsümov Eltun Xanmurad oğlu
Muradov Tural Rəsul oğlu
Mustafayeva Aydan İlham qızı
Nağıyeva Aynur Rauf qızı
Nağıyeva Sevinc Kamran qızı
Nəzirova Jalə Əfqan qızı
Novruzova Səadət Zəlimxan qızı
Novruzzadə Kənan Vidadi oğlu
Orucova Səmayə İbrahim qızı
Qasımov Şəhriyar Çingiz oğlu
Qəhrəmanov Xəqani Xanlar oğlu
Qocayev İdris Mübariz oğlu
Quliyev Aqşin İlham oğlu
Quliyev Tural Niyaz oğlu
Quliyeva Nigar Gəray qızı
Quluzadə Fuad Samir oğlu
Quluzadə Pərvin Zabit qızı
Rüstəmli Lamiə Əli qızı
Rüstəmova Kamilla Vaqif qızı
Rzaquliyev Cavid Pənah oğlu
Rzayeva Aynur Eldar qızı
Rzazadə Sitarə Azər qızı
Səfərəliyeva Ülkər Vafiq qızı
Səfərov Əşrəf Elşən oğlu
Süleymanova Günel Sadiq qızı
Süleymanova Şəbnəm Seyidbala qızı
Şahmarov Rauf Səadət oğlu
Şahməmmədov Farid Fikrət oğlu
Tağıyev Samir Azadxan oğlu
Tanırverdiyeva Sveta Nizaməddin qızı
Umbayeva Nərminə Rəhim qızı
Vəlibəyova Tamilla Vadim qızı
Yusifov İlkin Mahmud oğlu
Zamanova Könül İlqar qızı
Zülfüqarova Gülnar Əhmədağa qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 sentyabr 2006-cı il**

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ənənəvi olaraq ali məktəblərə 600-dən yuxarı balla qəbul olan gənclərin ictimaiyyətə tanıdılması, təcrübəsinin öyrənilməsi və yayılması məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. "Abituriyent" jurnalının bu sayı da bütünlüklə onlara həsr edilmişdir. Aşağıda TQDK-nın keçirdiyi tədbirlərdə iştirak edən, anket sorğusuna cavab verən, özü haqqında informasiya və şəklini təqdim edən hər bir gəncin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi məktəb haqqında məlumatlar dərc olunur. Burada həmçinin hər ixtisas qrupu üzrə ən yüksək bal toplamış gənclərlə aparılan müsahibələr təqdim edilir.**



# "Həmişə birinci olmağa çalışmışam"

*Ölkə birincisi Elvin İsmayılov hesab edir ki, ali məktəbə yüksək səviyyədə hazırlaşmaq üçün qarşıya konkret məqsəd qoyub həvəslə çalışmaq lazımdır*

Qısa bir vaxtda məşhurlaşmaq hər adama qismət olmur. Bunun üçün uzun illər lazım gəlir. Amma elə insanlar da var ki, bir günün içində məşhurlaşırlar. Elvin İsmayılov kimi. Bu gün həmyaşıdları arasında E.İsmayılovu tanımayan, demək olar ki, yoxdur. O, Sumqayıt şəhər Texniki və təbiət elmləri liseyini bitirib. Bu il II qrup üzrə qəbul imtahanında 697 bal toplayaraq həm qrup, həm də ölkə birincisi olub. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Menecment ixtisasına qəbul olan E.İsmayılovun atası təqaüdçü, anası isə dərzidir.

*- Elvin, nə vaxtsa fikirləşmişdin ki, ölkə birincisi olub bu qədər məşhurlaşacaqsan?*

- Həmişə birinci olmağa çalışmışam. Bunun üçün əlimdən nə gəlirsə, etmişəm. Düzü, ölkə birincisi olacağıma tam əmin deyildim. Amma inanırdım ki, bu adı qazana bilərəm. Bu baxımdan göstərdiyim nəticə məni o qədər də təəccübləndirmədi. Ancaq çox sevindim. Həmin sevinc hisslərini hələ də yaşayıram.

*- Ölkə birincisi olmağının səbəbini nədə görürsən: yaxşı hazırlaşmağında, yoxsa qeyri-adi bacarığında?*

- Etiraf edim ki, imtahana hazırlığım qeyri-adi şəkildə olmayıb. Başqa abituriyentlər necə hazırlaşıblarsa, mən də elə hazırlaşmışam. Hansısa şəkildə onlardan fərqlənməmişəm. Hətta, elə sinif yoldaşlarım olub ki, kitabı əllərindən yerə qoymayıblar, bütün günü oxuyublar. Amma o qədər də yüksək nəticə göstərməyiblər. Məncə, bu, daha çox yaddaş və qavrama qabiliyyəti ilə əlaqəli bir məsələdir. Elə insanlar var ki, həddindən artıq çox oxuyurlar, amma oxuduqları qədər savadlı deyillər. Elə insanlar da var ki, normal mütaliə edirlər, amma yüksək intellektə malikdirlər. O ki qaldı qeyri-adi qabiliyyətə malik insanlara, mən özümü onların sırasına aid etmirəm. Sadəcə, imtahanlara normal səviyyədə hazırlaşmışam və görünür, iti yaddaşım olduğuna görə uğur qazana bilmişəm. Onu da deyim ki, orta məktəbdə fənlər arasında fərq qoymamışam. Yalnız 11-ci sinifdə II qrupun imtahan fənlərinə daha çox diqqət yetirmişəm. Hazırlıq zamanı özüm üçün xüsusi rejim müəyyənləşdirməmişdim. Bəzən gündüzlər, bəzən də gecələr oxuyurdum. İstirahət üçün də vaxtım olurdu.

*- Maksimum balı toplamaq üçün cəmi 2.5 balın çatmayıb. Yəqin ki, bunun səbəbi suallardan birinə cavab verməməyindir. İmtahandan sonra həmin sualın cavabı ilə maraqlandınmı?*

- Cavab verə bilmədiyim 120-ci sual idi. Sonradan həmin sualın cavabı ilə maraqlandım. Məlum oldu ki, həmin sualın cavabı mənim tam dəqiqləşdirə bilmədiyim iki variantdan biri imiş. Üstəlik də, çox asan sual imiş.

*- Səncə, 700 bal toplamaq, yəni maksimum nəticəni əldə etmək mümkündür?*

- Əlbəttə!

*- Sən ən yüksək nəticə göstərən digər həmyaşıdlarını 7-10 balla qabaqlayıbsan. Necə fikirləşirsən, bu, sizin aranızdakı bilik fərqinin göstəricisidir, yoxsa sənin imtahanlara digər cəhətlərdən daha yaxşı hazırlaşmağının nəticəsidir?*

- Açığı, ölkədə ən istedadlı adam olduğumu iddia edə bilmərəm. Bu, sadəlövhlük olardı. Sadəcə, mən test imtahanlarının nəticələrinə görə ən yüksək bal toplamışam. Ola bilsin ki, məndən daha savadlı və istedadlı gənclər də var. Yüksək nəticə göstərən digər həmyaşıdlarıma gəlincə, əslində, onlarla mənim aramda bal fərqi o qədər də böyük deyil. Bu baxımdan aramızda önəmli dərəcədə intellektual fərqin olduğunu düşünmürəm. Məncə, imtahanlara psixoloji cəhətdən də hazır olmaq lazımdır. Ola bilsin ki, mənim onlardan üstünlüyüm bu sahədə olub. Çünki imatahana inamla getmişəm. Özümə tam şəkildə güvənmişəm. İmtahandan öncə də inanırdım ki, mütləq 600 baldan yüksək nəticə göstərəcəyəm.

*- Qəbul imtahanı istədiyin kimi keçdi, yoxsa sən başqa cür təsəvvür edirdin?*

- İmtahan gözlədiyim kimi oldu. Çünki əvvəlcədən inanırdım ki, imtahan obyektiv keçəcək. Ancaq məhəlləmizdə artıq imtahan verib test suallarına yaxşı cavab verə bilməyənlər düşdükləri imtahan zalından şikayətlənirdilər. Bu, məni bir az narahat edirdi. Amma sonra gördüm ki, həmin abituriyentlər özlərinə haqq qazandırmaq üçün belə danışırlar.

*- Özündən sonrakı abituriyentlərə nəyi tövsiyə edərdin?*

- Məncə, ali məktəbə yüksək səviyyədə hazırlaşmaq üçün hər bir abituriyent qarşısına konkret məqsəd qoymalıdır və bu məqsədə çatmaq üçün həvəslə çalışmalıdır. Bunlarsız çalışmağın heç bir faydası yoxdur. Bu baxımdan onlara konkret məqsəd üçün çalışmağı tövsiyə edərdim. Yüksək nəticə göstərmək heç də çətin deyil. Bunun üçün qeyri-adi istedada da ehtiyac yoxdur. Sadəcə, prinsipal olmaq və səylə çalışmaq lazımdır. Bunlar olduqdan sonra uğur da mütləq olacaq. Amma burada valideynlərin və müəllimlərin rolu da danılmazdır. Düzdür, abituriyentin necə hazırlaşması daha çox özündən asılıdır. Çünki yüksək səviyyədə hazırlaşmağın mənasını, məqsədini abituriyent özü anlamalıdır. Məsələn, nə valideynlərim, nə də müəllimlərim məni oxumağa məcbur etməyiblər. Onlar məni buna məcbur etsəydilər, bəlkə də, bu, əks effekt verərdi. Ancaq mən bununla onların əməyini və rolunu azaltmaq istəmirəm. Ən azı ona görə ki, valideynlərim vaxtında düzgün seçim edib məni təhsilin səviyyəsi çox yüksək olan bir məktəbə qoyublar. Bəlkə də, təhsilimi əvvəlki məktəbimdə davam etdirsəydim, indiki uğuru qazana bilməzdim. Yəni onu demək istəyirəm ki, valideynlər övladları üçün məktəb seçəndə də diqqətli olmalıdırlar.

# "İmtahanlara həm intellektual, həm də psixoloji cəhətdən hazır olmaq lazımdır"



*İlkin Yusifovun fikrincə, qəbul imtahanlarında uğur qazanmaq üçün biliklə yanaşı, özünə inam və iradə də önəmli şərtdir*

İlkin Yusifov 2006-cı ildə Bakı Özəl Türk liseyinin "Dədə Qorqud" filialını bitirib. Bu il qəbul imtahanlarında birinci ixtisas qrupunda 689 balla ən yüksək nəticə göstərərək Azərbaycan Dövlət Neft Akademiyasının Faydalı qazıntı yataqlarının işlənməsi ixtisasına daxil olub. Atası vəfat edən, anası isə Nizami rayonu 238 saylı məktəbdə kimya müəlliməsi olan İlkin qəbul imtahanlarındakı uğuruna görə ən çox anasının sevindiyini bildirir.

*- İlkin, səncə, qəbul imtahanlarındakı uğurunun əsas səbəbi nədir?*

- Məncə, yüksək nəticə göstərməyimin səbəbini yalnız bir amillə bağlamağım doğru olmazdı. Çünki uğur qazanmağımda bir yox, bir neçə amil mühüm rol oynayıb. Onların arasından əsas səbəb kimi XI sinfə qədər yaxşı oxumağımı və mütəmadi olaraq ali məktəbə hazırlaşmağımı göstərə bilərəm. Şübhəsiz ki, lisey məzunu olmağımın da yüksək nəticə göstərməyimdə önəmli rolu var. Bu amili qeyd etməməyim məzunu olduğum məktəbə qarşı ədalətsizlik olardı.

*- Qəbul imtahanlarına necə hazırlaşırdın? Bu məsələdə həmyaşıdlarından nədəsə fərqlənirdinmi?*

- Mən XI sinifdə özümü, demək olar ki, bütünlüklə oxumağa həsr etdim. Təxminən bir il ərzində oxumaqdan savayı heç bir işlə məşğul olmadım. Özümü hər şeydən təcrid etdim. Təsəvvür edin ki, son bir ildə dərsdən kənar hansısa bir işlə məşğul olduğumu xatırlaya bilmirəm. Amma bəzi həmyaşıdlarım özlərini futboldan, gəzməkdən və. s. tam ayırmağı bacarmadılar. Mən əsas fərqi bunda görürəm. Çünki qəbul imtahanlarına hazırlıq dövründə bu, çox önəmli amildir. Hətta, mən XI sinifdə yanvar ayından etibarən vaxt itirməmək və başqa işlərlə məşğul olmamaq üçün liseyin yataqxanasında qalmaq qərarına gəldim. Yataqxanada isə yeməkdən, yatmaqdan və oxumaqdan başqa heç bir məşğuliyyət yoxdur.

*- Qəbul imtahanlarına intellektual cəhətdən hazırlıq, şübhəsiz ki, əsas şərtdir. Bəs imtahanlarda uğur qazanmaq üçün psixoloji cəhətdən hazırlığın rolu nə dərəcədədir?*

- Məncə, imtahanlara həm intellektual, həm də psixoloji cəhətdən hazırlaşmaq lazımdır. Bəzi abituriyentlər imtahan zamanı həyəcandan bildikləri suallara belə cavab yaza bilmədiklərini deyirlər. Onlar psixoloji cəhətdən imtahana hazır olmayan abituriyentlərdir. İmtahan zalına daxil olanda məndə də həyacan var idi. Ancaq çox az idi. Əslində, imtahan zamanı cüzi həyəcanın olması təbiidir. Əsas odur ki, həyəcan abituriyentin suallara cavab verməsinə mane olmasın.

Mən imtahana yüksək səviyyədə hazırlaşmışdım və özümə inanırdım. Buna görə də həyəcanım çox cüzi idi. Əmin idim ki, ali məktəbə qəbul olacağam. Ancaq əsas məqsədim ya ölkə, ya da qrup birincisi olmaq idi. Bir sözlə, qəbul imtahanlarında uğur qazanmaq üçün biliklə yanaşı, özünə inam və iradə də önəmlidir. Özünə inam imtahanlara psixoloji cəhətdən hazır olmaq, iradə isə digər məşğuliyyətlərdən imtina edib bütün diqqətini dərslərə yönəltmək üçün vacib şərtdir.

*- İmtahanlara repititorla hazırlaşırdın? Ümumiyyətlə, hansısa fəndən repititor yanına getmisənmi?*

- Repititor yanına getməyə pis baxmıram. Amma mən, demək olar ki, repititor yanına getməmişəm. Bəziləri fikirləşir ki, hər şeyi repititor-müəllim həll edir. Ancaq belə deyil. Mənə elə gəlir ki, müəllim ümumi işin 30, ən uzağı 40 faizini görə bilər. Yerdə qalan iş abituriyentin özünün üzərinə düşür.

*- Bəs sənə hazırlıq zamanı kim istiqamət verirdi?*

- Anam kimya müəlliməsi olduğu üçün bu məsələdə problemim ola bilməzdi. Hazırlaşmağım üçün kifayət qədər vəsait vardı. Bunlar dərsliklər, TQDK-nın hazırladığı testlər və proqramlar idi. İmtahana hazırlıq üçün nə lazımdırsa, demək olar ki, hamısını oxumuşdum. Məncə, dərsliklər və TQDK-nın hazırladığı vəsaitlər əsasında imtahanlara yüksək səviyyədə hazırlaşmaq mümkündür. Bunun üçün repititor yanına getməyə ehtiyac yoxdur.

*- Səncə, bu məsələlərdə valideynlərin rolu nə qədərdir?*

- Mənə elə gəlir ki, valideynlər övladlarına təzyiq göstərməməlidirlər. Valideynlərin onların hazırlıq prosesinə həddindən artıq müdaxiləsi bəzən mənfi nəticə verir. Məncə, abituriyentlərin valideynlərin müdaxiləsinə yox, məsləhətlərinə ehtiyacları var. Məsələn, anam mənim hazırlıq prosesimə müdaxilə etmirdi, yalnız məsləhətləri ilə mənə kömək göstərirdi.

Şübhəsiz ki, ailədəki mühitin də bu məsələdə müəyyən qədər rolu var. Yeganə valideynim anam olduğu üçün mənə görə çəkdiyi əziyyəti görürdüm. Bu, məni imtahanlara daha səylə hazırlaşmağa sövq edirdi. Məndə belə bir fikir formalaşmışdı ki, anamın əziyyətinin hədər getməməsini sübuta yetirməliyəm. Bu hiss məsuliyyətimi daha da artırmışdı. Bəzən anam oxumağa bir az ara verməyimi, istirahətə vaxt ayırmağımı istəyirdi. Amma məni istirahət yox, anamın etimadını doğrultmaq və çəkdiyi əziyyətin müəyyən qədər əvəzini vermək düşündürürdü. Qəbul imtahanında qazandığım uğura görə ən çox sevinən də anam oldu. Necə deyərlər, bu, mənim anama ithaf etdiyim ilk qələbəmdir.



# "İmtahanların bu qədər şəffaf keçiriləcəyini təsəvvür etmirdim"

*Gülnar Zülfüqarova: "İndi də başa düşə bilmirəm ki, niyə qəbul imtahanları haqqında xoşagəlməz, uydurma söz-söhbətlər yayılır"*



Zaman keçdikcə ölkədə təhsil sahəsində özəl ali məktəblərin rolu artır. Pullu təhsil vermələrinə baxmayaraq, özəl ali məktəblər dövlət ali məktəbləri ilə raqabət apara bilirlər. Hətta, bir çox hallarda bu rəqabətdə bəzi özəl universitetlər əksər dövlət ali məktəblərini üstələyir. Bunu yüksək nəticə göstərən abituriyentlərlə bağlı statistikada da görmək olar. Məsələn, bu il 600 baldan yuxarı nəticə göstərən 30 abituriyent "Qafqaz" Universitetinə daxil olub. Onların arasında 686 balla üçüncü qrupun birincisi olan Gülnar Zülfüqarova da var. Bakıda 84 saylı orta məktəbi bitirən, atası işsiz, anası isə dərzi olan G.Zülfüqarova "Qafqaz" Universitetinin ingilis dili və ədəbiyyatı ixtisasına qəbul olub. Etiraf edək ki, belə yüksək nəticə göstərən bir gəncin özəl ali məktəbi seçməsi çoxlarına qəribə gəlib. Buna görə də, onunla söhbətə elə bu məsələdən başladıq.

*- Gülnar, özəl universiteti dövlət ali məktəblərindən üstün tutmağının səbəbi nədir?*

- Açığını deyim ki, ali məktəbə hazırlıq dövründə hansı ixtisası seçəcəyimi əvvəlcədən müəyyənləşdirməmişdim. Yalnız onu bilirdim ki, üçüncü qrupa sənəd verəcəyəm. Əslində, seçim qarşısında qalmışdım və konkret ixtisas seçməkdə tərəddüd edirdim. Müəyyən müddət keçdikdən sonra seçimimi bir qədər dəqiqləşdirdim. Qərara gəldim ki, ya Bakı Dövlət, ya da Dillər Universitetinə daxil olum. Bunlar arasında seçim etmək üçün hər iki universitetin tələbələri ilə görüşüb məsləhətləşdim. Nəticədə ingilis dili və ədəbiyyatı ixtisasını seçdim. Çünki bu ixtisası daha münasib saydım. Fikirləşdim ki, bu sahədə özümü təsdiqləyə bilərəm. Amma Dillər Universitetinin tələbələri ilə görüşdükdə təəccüblü məqamlarla qarşılaşdım. Onlar Dillər Universitetini deyil, "Qafqaz" Universitetinin ingilis dili və ədəbiyyatı ixtisasını yazmağımı məsləhət gördülər. Açıq şəkildə bildirdilər ki, bu universitetdə təhsilin səviyyəsi daha yüksəkdir. Onu da deyim ki, müəllim olacağımı ağlıma belə gətirmirdim. Fikirləşirdim ki, hüquqşünas, jurnalist olaram, amma müəllim olmaram. Ancaq sonra fikrim dəyişdi. Çünki sözün əsl mənasında fədakar müəllimlər gördüm. Başa düşdüm ki, əsl müəllim kimdir və müəllimlik müqəddəs peşədir. Həm də mən üçüncü qrupun birincisi olacağımı zənn etmirdim. Düzdür, yuxuda birinci olduğumu və hamının məni təbrik etdiyini dəfələrlə görmüşdüm. Hətta, "Araz" hazırlıq kursunda müəllimlərimiz bizə deyirdilər ki, sizin birinci olmaq şansınız böyükdür. Çünki bizdə yüksək hazırlıqlı abituriyentlər çox idi. Amma fikirləşmirdim ki, birinci olmaq arzum gerçəkləşəcək. Ona görə də, yüksək ixtisasları yazmaq istəmədim. İxtisas seçərkən adi bir seçim etdim. İndi buna görə peşman deyiləm. Ancaq etiraf edirəm ki, balımı görəndə şoka düşdüm, inanmağım gəlmədi.

*- Ali məktəbə yalnız hazırlıq kursu çərçivəsində hazırlaşmışdın?*

- Bəli, yalınz 11-ci sinifdə "Araz" hazırlıq kursuna getmişəm. Bundan əvvəl xüsusi olaraq ali məktəbə hazırlaşmamışam. Ümumiyyətlə, orta məktəbdə təhsil alarkən bütün fənlərə eyni cür yanaşmışam. Elə bir dərs olmayıb ki, mən ona hazırlıqsız gedim. Çünki bütün fənlər mənə doğma idi. Onlar arasında fərq qoya bilmirdim. Sadəcə, on birinci sinifdə III qrupa sənəd vermək qərarına gəldikdə bu qrupun imtahan fənlərinə daha çox diqqət yetirməyə başladım. Necə hazırlaşmağıma gəlincə, bizə hazırlıq kursunda cədvəl vermişdilər. Həmin cədvəldə vaxt bölgüsü və necə hazırlaşmaq göstərilmişdi. Bu qaydalara əməl etmək çox çətin idi. Amma bununla belə cədvələ əməl etməyə çalışırdım. Gündüzlər evdə yalnız özüm olduğuma görə həmin qaydalara əməl edə bilirdim. Televizora baxmaqdan, əlavə işlərlə məşğul olmaqdan imtina etmişdim. Ancaq yorulanda musiqiyə qulaq asırdım. Bu da istirahətim üçün kifayət edirdi. Onu da deyim ki, qışda hazırlıq qaydalarına əməl etmək asandır. Amma yayda havalar isti keçdiyi üçün adam çox oxumağa çətinlik çəkir. Bununla belə necə olursa-olsun kitabı əlimdən yerə qoymurdum.

*- Valideynlərin də səni çox oxumağa məcbur edirdilər?*

- Onlar mənə həddindən artıq diqqətlə yanaşırdılar. Məsələn, mən hazırlaşanda evdə nə televizora baxırdılar, nə də radioya qulaq asırdılar, hamı sakit otururdu. Hərdən atam yanıma gəlib başımı sığallayırdı, zarafatla deyirdi ki, oxu, mənim Prezident təqaüdçüsü qızım! Otağımın divarından ötən il yüksək nəticə göstərən qrup birincilərinin şəkillərini asmışdım. Mən onlara baxıb köks ötürürdüm, yaxşı mənada onlara qibtə edirdim. Evdəkilər də mənə deyirdilər ki, narahat olma, bu il də sənin şəkilin orada olacaq. Zarafat xatirinə deyilən bu sözlər həqiqətə çevrildi. Amma valideynlərim məni nəyəsə məcbur etmirdilər. Ümumiyyətlə, orta məktəbdə onlar mənim oxumaqla bağlı işlərimə qarışmayıblar. Sadəcə, elə bir mühit yaradıblar ki, mən oxumağın, elm arxasınca getməyin ən doğru variant olduğunu anlamışam. Mənə elə gəlir ki, bu məsələdə valideynlərin əvəzedilməz rolu var. Təsəvvür edin ki, bir ailədə abituriyent qəbul imtahanlarına hazırlaşır və birdən valideynləri dalaşırlar. Bundan sonra həmin abituriyentin hazırlığını normal əhval-ruhiyyədə davam etdirməsi qeyri-mümkündür.

*- Hazırlıq dövründə imtahanlar haqqında nə fikirləşirdin? İnanırdın ki, qəbul imtahanı tam obyektiv keçiriləcək?*

- Sizə maraqlı bir məqamı danışım. Ali məktəbə sənəd verdikdən sonra məlum oldu ki, Yasamal rayonunun orta məktəblərindən birində imtahan verəcəyəm. Mənə deyirdilər ki, rayon məktəblərində imtahanda nəzarətçi müəllimlər bəzən cavab kartlarını səhv salırlar, abituriyentlərə köçürməyə şərait yaradırlar. Bu cür hallar mənim üçün ölümdən betər idi. Təsəvvür edin ki, dəhşətli dərəcədə qorxdum. Hətta ağladım da. Fikirləşdim ki, hansısa nəzarətçi müəllimin qurbanına çevriləcəyəm. Valideynlərim birtəhər məni sakitləşdirdilər. Dedilər ki, bunlar boş söhbətlərdir, hər deyilənə inanma. Həmin gecə səhərə qədər Allaha dua etdim ki, sənədlərim səhv düşməsin, imtahan verdiyim zalın nəzarətçisi obyektiv müəllim olsun. İndi də bu haqda danışanda həmin anlar yadıma düşür, həyəcanlanıram. Amma imatahan zalına daxil olanda tamam başqa bir mənzərə ilə qarşılaşdım. Fikirləşdiklərimin və mənə deyilənlərin tam əksini gördüm. Elə bir şərait yaradılmışdı ki, köçürməkdən, sənədlərin səhv salınmasından, nəzarətçi müəllimlərin səhlənkarlığından söhbət belə gedə bilməzdi. Məncə, abituriyentlərin öz biliklərini nümayiş etdirmələri üçün bu ən ideal şərait idi. İnanın ki, bir neçə dəqiqədən sonra məndə həyəcandan əsər-əlamət də qalmadı. Düzü, imtahanların bu qədər şəffaf keçiriləcəyini təsəvvür etmirdim. İndi də başa düşə bilmirəm ki, niyə qəbul imtahanları haqqında bu cür xoşagəlməz, uydurma söz-söhbətlər yayılır.

# Tural Quliyev abituriyentlərə bütün hazırlıq prosesini son bir ilə saxlamamağı məsləhət görür



*Onun qənaətinə görə, qısa vaxtda əldə edilən bilik qısa vaxtda da yaddan çıxır*

Sevindirici haldır ki, bu il IV qrup üzrə abituriyentlərin göstəriciləri xeyli yaxşılaşıb, nəticədə keçid və orta ballar yüksəlib. Bu isə insanların sağlamlığının keşiyində duran gələcək həkimlərin daha intellektli olması deməkdir. Qrupun liderinə gəlincə, bu adı 686 balla Tural Quliyev qazanıb. Bakıdakı Kimya-biologiya təmayüllü liseyi bitirən T.Quliyev Azərbaycan Tibb Universitetinin Stomatologiya ixtisasına daxil olub. T.Quliyevin hər iki valideyni həkimdir.

*- Tural, yəqin, valideynlərinin yolunu davam etdirmək üçün bu ixtisası seçmisən?*

- Etiraf edim ki, bu ixtisası seçməyimin müəyyən mənada valideynlərimin həkim olması ilə bağlılığı var. Onların yolunu davam etdirmək mənim arzumdur. Ümumiyyətlə, həkimlik bizim ailəvi peşəmizdir. Böyük qardaşım da Tibb Universitetində təhsil alır. Amma desəm ki, valideynlərimin təkidi ilə həkim olmaq istəyirəm, bu, səhv olardı. Çünki həkim olmağı uşaqlıqdan arzulamışam. Yəni valideynlərim ixtisas seçimində məni nəyəsə məcbur etməyiblər.

*- Həkim olmaq istəyənlər, daha doğrusu, IV qrupun abituriyentlərinin böyük əksəriyyəti ərizələrində Müalicə işi ixtisasını birinci göstərirlər. Maraqlıdır, sən birinci Stomatologiya ixtisasını göstərmisən və həmin ixtisasa da qəbul olmusan.*

- Stomatologiya ixtisasını təsadüfi seçməmişəm. Uşaqlıqdan bu peşəyə rəğbətim var. Həmçinin, bu ixtisasın perspektivi genişdir. Məncə, bu sahədə yüksək səviyyədə təhsil aldıqdan sonra iş tapmaq çətin deyil. Ona görə də qarşıma məqsəd qoymuşam ki, mükəmməl təhsil alım. İstəyirəm ki, yüksək ixtisaslı kadr kimi tanınım. Həm də xaricdə təhsil almaq fikrim var.

*- Bu il yüksək bal toplayan abituriyentlərə Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasında təhsil almaq imkanı verilmişdi. Bəs niyə bu imkandan istifadə etmədin?*

- Öncə onu deyim ki, gənclərə bu cür imkanlar yaradılması təqdirəlayiq haldır. Məncə, bunu yalnız alqışlamaq olar. O ki qaldı mənim bu imkandan yararlanmamağıma, "Gülhanə" Hərbi Tibb Akademiyasıdır. Atam hərbiçi həkim olduğu üçün bu sahədə təhsil almağımı məsləhət görmədi. Çünki o, mənim daha geniş dairədə fəaliyyət göstərməyimi istəyir.

*- Tural, qəbul imtahanlarına necə hazırlaşmışdın?*

- İmtahanlarda uğur qazanmaq üçün ciddi və əzmlə çalışırdım. Repititor yanına getməyim işimi xeyli asanlaşdırdı. Çünki qəbul imtahanlarına repititorun köməyi ilə hazırlaşmaq elə də çətin olmur. Ancaq bu, o demək deyil ki, repititor yanına getmədən ali məktəbə daxil olmaq və ya yüksək bal toplamaq qeyri-mümkündür. Orta məktəbdə dərslər yüksək səviyyədə keçilsəydi, şəxsən mən repititor yanına getməzdim. Yəni abituriyentlərin repititor yanına getmələri təhsildəki boşluqlardan irəli gəlir. Məncə, orta məktəbdə tələblər ciddiləşsə və təhsilin səviyyəsi qalxsa, abituriyentlərin repititor yanına getməsinə ehtiyac qalmaz. Onu da deyim ki, qəbul imtahanlarına hazırlığın səviyyəsi müəyyən qədər valideynlərdən asılıdır. Doğrudur, ən böyük yük abituriyentin üzərinə düşür və ən çox əziyyəti də o, çəkir. Amma abituriyentlər valideynlərinin onlara qayğı göstərdiklərini və nəzarətdə saxladıqlarını gördükdə daha ciddi və məsuliyyətlə çalışırlar. İstəyirlər ki, valideynlərinin etimadını doğrultsunlar. Şəxsən mənim uğur qazanmağımda valideynlərimin əməyi çox böyükdür. Onlar əvvəllər israrla çox oxumağımı və çalışmağımı təkid edirdilər. Amma gördükdə ki, həqiqətən də çox oxuyuram, məndən istirahətə vaxt ayırmağımı istədilər.

Fikrimcə, qəbul imtahanlarına yalnız 10 və 11-ci siniflərdən yox, aşağı siniflərdən başlayaraq hazırlaşmaq lazımdır. 10-11-ci siniflərdə isə bu hazırlıq daha intensiv hal almalıdır. Ümumiyyətlə, ali məktəbə hazırlaşan abituriyentlərin 11-ci sinifdə dərsdən başqa bir işlə məşğul olmaları doğru deyil. Çünki başqa məşğuliyyətlər fikrin cəmləşdirilməsinə mane olur. Mən öyrəndiklərimin təxminən 50 faizini 11-ci sinifdə əldə etmişəm. Ən doğru variant odur ki, hazırlıq prosesini tədricən aparasan. Çünki qısa vaxtda əldə edilən bilik qısa vaxtda da yaddan çıxır. Bu baxımdan gələcək abituriyentlərə məsləhətim odur ki, bütün hazırlıq prosesini son bir ilə saxlamasınlar. Fikirləşməsinlər ki, 11-ci sinifdə repititor yanına gedəcəklər və qısa vaxtda hazırlaşıb ali məktəbə daxil olacaqlar.

*- İmtahanda səni qane etməyən məqam oldumu? Ümumiyyətlə, test imtahanlarından razı qaldınmı?*

- Fikrimcə, imtahanla bağlı nədənsə şikayətlənmək ədalətsizlik olardı. Çünki imtahanlar yüksək səviyyədə təşkil edilmişdi. Abituriyentlərin öz biliklərini nümayiş etdirməsinə heç bir maneə yox idi. Mənə belə gəlir ki, imtahanların nəticələri də onun şəffaflığını təsdiqləyir. O ki qaldı sualların səviyyəsinə, məncə, onların çətin olduğunu söyləmək doğru olmazdı. Əksinə, mən deyərdim ki, test suallarını bir qədər çətinləşdirmək lazımdır. Çünki zaman keçdikcə abituriyentlərin səviyyəsi qalxır. Təsəvvür edin ki, indiki test suallarının hamısına cavab vermək mümkündür. Sadəcə, bir qədər çox çalışmaq lazımdır. Belə olan halda hansısa sualın çətinliyindən şikayətlənənləri başa düşə bilmirəm.

*- Bəs inanırdın ki, imtahanlar şəffaf keçiriləcək və nəyə qadir olduğunu nümayiş etdirə biləcəksən?*

- Düzü, evdə məni çox qorxutmuşdular. Deyirdilər ki, ehtiyatlı ol, sənədlərin səhv düşə, cavab kartın başqasına verilə bilər. Həmçinin, tapşırmışdılar ki, qoyma, səndən başqaları köçürsün. Amma imtahanda bütün bunlarla bağlı heç bir narahatçılığım olmadı. Nəzarət çox güclü idi. Vaxt isə bütün suallara baxmağa kifayət etdi. Bəzi abituriyentlər vaxt azlığından şikayət edir. Ancaq mən vaxtın artırılmasını doğru saymıram. Fikrimcə, sualların hamısını yazmaq üçün müəyyənləşdirilmiş vaxt idealdır. Sadəcə, vaxtdan düzgün istifadə etmək lazımdır. Bunun üçün sınaq imtahanlarında iştirak etmək və TQDK-nın bütün tövsiyələrinə əməl etmək vacibdir. Bütün bunların imtahanda böyük faydası var.



# "Ali məktəbə hazırlıq dövründə sınaq imtahanlarında iştirak etmək vacibdir"

*Aytəkin Məmmədovanın fikrincə, sınaq imtahanlarında həm biliyinin səviyyəsini müəyyənləşdirmək, həm təcrübə toplamaq, həm də zəif cəhətlərini aşkarlamaq mümkündür*



Bu il beşinci qrupda yalnız bir nəfər 650-dən yuxarı bal toplamış və Prezident təqaüdünə layiq görülmüşdür. Bu, 674 balla qrup birincisi olan Aytəkin Məmmədovadır. Bakıda 291 saylı ekologiya liseyini bitirən A.Məmmədova Bakı Dövlət Universitetinin Psixologiya ixtisasına qəbul olub. A.Məmmədovanın atası vəfat edib, anası isə işsizdir.

*- Aytəkin, adətən özünə və biliyinə daha çox güvənən qızlar IV qrupa sənəd verirlər, yəni həkim olmaq istəyirlər. Ancaq sən pedaqoji ixtisasların daha çox olduğu V qrupu üstün tutmusan. Bu, sənin öz seçimin idi?*

- Psixologiya elminə çox böyük həvəsim var. Sənədlərimi V qrupa verməyim də elə bununla bağlı idi. İstəyirəm ki, bu elmə dərindən yiyələnim. Qəbul imtahanlarında yüksək bal toplamağım arzumu gerçəkləşdirməyə imkan yaratdı. Həmişə psixologiyaya maraqlı və gərəkli bir elm kimi baxmışam. Bu ixtisasa qəbul olduğum üçün psixologiya artıq mənim maraq sahəm yox, ixtisasım və peşəm olacaq.

*- Bəs bu ixtisasın gələcək perspektivini necə görürsən?*

- Azərbaycanda psixoloq peşəsinə meyl o qədər də böyük deyil. Ola bilsin ki, bu peşə bir çoxlarına maraqlı gəlmir. Ona görə də, psixologiyaya yox, başqa ixtisaslara üstünlük verirlər. Halbuki, xarici ölkələrdə, xüsusilə inkişaf etmiş dövlətlərdə psixoloqlar cəmiyyət üçün vacib sayılan peşə sahibləri hesab edilirlər. Bu ölkələrdə böyük şirkətlərin, hətta hər bir ailənin öz psixoloqu olur. Ondan mütəmadi məsləhətlər alırlar. Mən Azərbaycanda da psixologiyanın önəmli elm sahələrindən birinə çevriləcəyinə inanıram. Əgər inamım olmasaydı, bu ixtisası seçməzdim. Psixoloq olmaq üçün hələ dörd il təhsil almalıyam. Ümid edirəm ki, bu dörd il ərzində çox şey müsbət istiqamətdə dəyişəcək.

*- İnkişaf etmiş ölkələrdə psixoloqların tanınmış peşə sahibləri olduğunu bildirdin. Həmin ölkələrdən birində təhsil almaq istəyərdinmi?*

- Təhsilimi xaricdə davam etdirmək fikrim var. Ancaq bu, gələcək planlarıma daxildir. Əslində, təhsilimi Türkiyədə davam etdirmək imkanım oldu, amma hələlik bunu məqsədəuyğun saymadım. Çünki mənim üçün bu məsələdə yaş amili də önəmlidir.

*- Maraqlıdır, psixoloq olmaq istəyən bir abituriyent qəbul imtahanlarına psixoloji cəhətdən necə hazırlaşmışdı?*

- Ali məktəbə adi qaydada hazırlaşmışam. Hazırlıq prosesində qeyri-adi bir üsuldan istifadə etməmişəm. Ancaq dərslərimə və imtahana hazırlığa kifayət qədər ciddi yanaşırdım. Demək olar ki, boş vaxtım olmayıb. Bütün diqqətimi hazırlıq prosesinə yönəltmişdim. Yəqin ki, bəzi həmyaşıdlarımdan yeganə fərqim bu olub. Amma az da olsa, istirahətə də vaxt ayırırdım. Çünki bunsuz mümkün deyil. Məncə, imtahanlara yüksək səviyyədə hazırlaşmaq müəyyən qədər düzgün vaxt bölgüsü aparmaqdan və dərslərlə yanaşı istirahətə də normal vaxt ayırmaqdan asılıdır.

Sözsüz ki, bu məsələdə valideynin dəstəyi də önəmli amildir. Konkret mənə gəlincə, anam hazırlıqla bağlı işlərimə müdaxilə etmirdi. Yalnız mənəvi dəstək verib məni düzgün istiqamətə yönəldirdi. Mənə elə gəlir ki, abituriyentin necə hazırlaşması daha çox onun özündən asılıdır. Çünki valideyn yalnız məsləhət verə bilər.

*- Qəbul imtahanından əvvəl sınaq imtahanında iştirak etmişdin? Ümumiyyətlə, sınaq imtahanında topladığın balla qəbul imtahanında topladığın bal üst-üstə düşdümü?*

- Mənə elə gəlir ki, ali məktəbə hazırlıq dövründə sınaq imtahanlarında iştirak etmək çox vacibdir. Çünki sınaq imtahanlarında həm biliyinin səviyyəsini müəyyən edirsən, həm təcrübə toplayırsan, həm də zəif cəhətlərini aşkarlayırsan. Bu baxımdan sınaq imtahanlarında bir neçə dəfə iştirak etmək ən doğru variantdır. O ki qaldı sınaq imtahanlarında göstərdiyim nəticə ilə qəbul imtahanında göstərdiyim nəticənin üst-üstə düşməsinə, demək olar ki, bunlar bir-birindən elə də fərqlənmədi. Amma birinci sınaq imtahanında nisbətən az bal toplamışdım. Sonra hazırlıq dövründə biliyimi xeyli artırdım. Nəticədə, axırıncı sınaq imtahanında topladığım balla qəbul imtahanında topladığım bal, demək olar ki, üst-üstə düşdü. Onu da deyim ki, sınaq imtahanlarından sonra özümə inamım xeyli artmışdı. Ona görə də, nə sınaq, nə də qəbul imtahanında həyəcan hissi keçirmədim. Sualların hamısına baxmaq imkanım oldu. Məncə, imtahana yaxşı hazırlaşdıqda adamda özünə inam hissi formalaşır. İnam olan yerdə isə həyəcan ola bilməz. Bu baxımdan mən abituriyentlərə ciddi hazırlaşmağı tövsiyə edərdim. Yerdə qalan amillər bundan asılıdır.

*- Fərz elə ki, sənə qəbul prosesinə dəyişiklik etmək səlahiyyəti verilib. İmtahanla bağlı ilk növbədə nəyi dəyişdirərdin?*

- Məncə, qəbul prosesinə ciddi bir dəyişiklik etməyə ehtiyac yoxdur. Çünki qəbul imtahanları kifayət qədər obyektiv və şəffaf keçirilir. Ali məktəbə qəbulda önəmli olan da elə budur. Şəxsən mən qəbul prosesində heç bir mənfi halla rastlaşmadım. İmtahan verdiyim zalda nə saxtakarlıq, nə də köçürmə halları ilə qarşılaşdım. Suallar isə normal idi. Məncə, onların çətinliyindən danışmaq əbəsdir. Amma mənə elə gəlir ki, sualları məntiqi baxımdan bir az daha maraqlı etmək olar. Ümumiyyətlə, sualların bir qədər çətinləşdirilməsini istəyərdim. Çünki Azərbaycan dilindən başqa digər fənlərin sualları mənə adi sual təsiri bağışladı.

*- Sən qəbul imtahanlarına yüksək səviyyədə hazırlaşdığın üçün suallar sənə asan gələ bilər. Amma bu, o demək deyil ki, suallar çox asandır. Əgər suallar sənin dediyin qədər asan olsaydı, V qrupda 650 baldan yuxarı nəticə göstərən abituriyentlər çox olardı. Elə deyilmi?*

- Bu da doğru fikirdir, etiraz etmirəm. Şübhəsiz ki, suallar hazırlananda bir neçə abituriyentin yox, böyük əksəriyyətin səviyyəsi nəzərə alınır. Bu baxımdan razılaşıram ki, sualların ümumi səviyyəsinin normal olduğunu qiymətləndirməmək ədalətsizlik olardı.

# I QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### YUSİFOV İLKİN MAHMUD OĞLU

689.286 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Faydalı qazıntı yataqlarının işlənməsi” ixtisasına qəbul olub.
Bakı “Dədə Qorqud” Özəl Türk Kompüter liseyinin məzunudur.



### MƏMMƏDOVA LEYLİ ZAUR QIZI

688.036 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 134 saylı orta məktəbin məzunudur.



### SÜLEYMANOVA ŞƏBNƏM SEYİDBALA QIZI

685.625 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 289 saylı orta məktəb - “Zəngi” liseyinin məzunudur.



### BİLALOV TURAL BİLAL OĞLU

676.964 balla Bakı Dövlət Universitetinin “İnformatika” ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 189 saylı orta məktəbin məzunudur.



### HÜSEYNOVA CAVİDAN NATİQ QIZI

673.750 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Bakı ş. H.Əliyev adına Müasir Təhsil Kompleksinin məzunudur.



### ŞAHMAROV RAUF SƏADƏT OĞLU

668.036 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Masallı rayonu Köhnə Alvadı kənd orta məktəbinin məzunudur.



### QULİYEV AQŞİN İLHAM OĞLU

667.321 balla Bakı Dövlət Universitetinin “İnformatika” ixtisasına qəbul olub.
Bakı ş. Nəsimi rayonu Texniki humanitar liseyin məzunudur.



### AXUNDZADƏ QORQUD TAHİR OĞLU

666.786 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Faydalı qazıntı yataqlarının işlənməsi” ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu Texniki-humanitar liseyin (keçmiş 147 saylı orta məktəb) məzunudur.



### HÜSEYNOV AZƏR SƏRVƏR OĞLU

666.250 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Mingəçevir şəhəri təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü liseyin məzunudur.



### MƏMMƏDOVA ÇİNARƏ XANKİŞİ QIZI

665.000 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 191 saylı orta məktəbin məzunudur.



## SƏFƏROV ƏŞRƏF ELŞƏN OĞLU

664.108 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Salyan rayonu 2 saylı şəhər orta məktəbinin məzunudur.



## ƏLİYEV ELŞƏN MƏHƏMMƏD OĞLU

663.929 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Göyçay rayonu Nizami adına 7 saylı şəhər orta məktəbinin məzunudur.



## ABDULLAYEV NURLAN İMRAN OĞLU

661.071 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı Özəl Türk liseyinin Quba filialının məzunudur.



## İBRAHİMOV ELÇİN ÇAĞLAR OĞLU

660.929 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu 167 saylı orta məktəbin məzunudur.



## MƏMMƏDLİ İLKİN FƏXRƏDDİN OĞLU

660.446 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Şamaxı rayonu Şirvan kənd orta məktəbinin məzunudur.



## VƏLİBƏYOVA TAMİLLA VADİMOVNA

660.268 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 264 saylı məktəb-liseyin məzunudur.



## QULUZADƏ FUAD SAMİR OĞLU

655.929 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 56 saylı orta məktəb-liseyin məzunudur.



## AĞAYEV FARİZ FÜZULİ OĞLU

655.804 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Salyan rayonu 7 saylı şəhər orta məktəbinin məzunudur.



## NAĞIYEVA SEVİNC KAMRAN QIZI

653.964 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Sabunçu rayonu 67 saylı orta məktəbin məzunudur.



## MƏMMƏDOVA XURAMAN VAQİF QIZI

653.304 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



## ƏSGƏROV MURAD HİKMƏT OĞLU

653.036 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Binəqədi rayonu 100 saylı orta məktəbin məzunudur.



## ALLAHVERDİYEV PƏRVİZ QƏDİR OĞLU

653.036 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Sabunçu rayonu 80 saylı orta məktəbin məzunudur.



## MUSTAFAYEVA AYDAN İLHAM QIZI

653.000 balla Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 160 saylı orta məktəbin məzunudur.



## MƏMMƏDOV RƏVAN EHTİBAR OĞLU

652.946 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
İsmayıllı rayonu 3 saylı şəhər orta məktəbinin məzunudur.



## SÜLEYMANOVA GÜNEL SADİQ QIZI

652.911 balla Bakı Dövlət Universitetinin "Riyaziyyat" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 23 saylı orta məktəbin məzunudur.



## QƏHRƏMANOV XƏQANİ XANLAR OĞLU

652.804 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 95 saylı orta məktəbin məzunudur.



## MİRZƏYEV RÜSTƏM KAMİL OĞLU

650.983 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Avtomatika və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Nərimanov rayonu 66 saylı orta məktəb - "Tərəqqi" texniki-humanitar liseyin məzunudur.



## BAYRAMOV ƏHƏD BABA OĞLU

650.536 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Cəlilabad rayonu Alar kənd 1 saylı orta məktəbin məzunudur.



## MURTUZAYEVA SARA MİRAĞA QIZI

650.304 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Ucar rayonu 2 saylı şəhər orta məktəbinin məzunudur.



## ŞƏKƏRƏLİSOY ELGÜN HÜSEYN OĞLU

650.089 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Naxçıvan MR Culfa şəhər 1 saylı orta məktəbinin məzunudur.



## MƏLİKOV FÜZULİ ZÜLFİ OĞLU

649.911 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 214 saylı orta məktəbin məzunudur.



## QASIMOV QASIM MİRBALA OĞLU

649.286 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Əzizbəyov rayonu 183 saylı orta məktəbin məzunudur.



## ƏLİYEV NATİQ SABİR OĞLU

648.393 balla "Qafqaz" Universitetinin "Riyaziyyat" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



## HEYDƏROV ANAR NATİQ OĞLU

648.036 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 55 saylı orta məktəbin məzunudur.

# I QRUP
## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR







### ƏŞRƏFOV ELÇİN YAFƏZ OĞLU
647.858 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı Özəl Türk liseyinin Ağdaş filialının məzunudur.



### QURBANOVA NİGAR ƏFRUZ QIZI
645.536 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Bakı ş. Suraxanı rayonu 282 saylı orta məktəbin məzunudur.



### AXUNDOV ABBAS ZAKİR OĞLU
644.643 balla Azərbaycan Dövlət Neft Akademiyasının "İnformatika və hesablama texnikası" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 59 saylı orta məktəbin məzunudur.



### MƏMMƏDOVA AYNUR RƏHİM QIZI
644.286 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Sabunçu rayonu 72 saylı məktəb-liseyin məzunudur.



### ƏLİLİ ABBAS İLHAM OĞLU
642.589 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Avtomatlaşdırma və informasiya texnikası (TEMPUS proqramı üzrə)" ixtisasına qəbul olub.
Bakı ş. Qaradağ rayonu 253 saylı orta məktəbin məzunudur.



### ƏLİYEV ELNUR ƏLİ OĞLU
642.411 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Balakən rayonu Texniki humanitar təmayüllü liseyin məzunudur.



### HƏSƏNOVA TURAN İLQAR QIZI
642.358 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



### İSMAYILOV İBRAHİM POLAD OĞLU
636.875 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 264 saylı məktəb-liseyin məzunudur.



### BARİKAYEVA NATALİYA ANATOLİY QIZI
636.518 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 289 saylı orta məktəb - "Zəngi" liseyinin məzunudur.



### MƏMMƏDOV NİCAT ELMAN OĞLU
636.071 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 220 saylı orta məktəbin məzunudur.



### MAHMUDOV ELÇİN YOLÇU OĞLU
635.625 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 24 saylı orta məktəbin məzunudur.



### KAZIMLI SAMİR RAMİZ OĞLU
635.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
İsmayıllı rayonu 3 saylı şəhər orta məktəbinin məzunudur.



## NURULLAYEV RAMİL FİZULİ OĞLU

634.571 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Bakı ş. Nəsimi rayonu 54 saylı orta məktəbin məzunudur.



## HÜSEYİNOV RAUF ABİL OĞLU

634.464 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Bakı ş. Əzizbəyov rayonu 117 saylı orta məktəbin məzunudur.



## GƏRAYLI FİDAN İSFAHAN QIZI

633.858 balla Bakı Dövlət Universitetinin “İnformatika” ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 210 saylı orta məktəbin məzunudur.



## PİRƏLİYEV ELNUR ZÖHRAB OĞLU

633.750 balla Bakı Dövlət Universitetinin “İnformatika” ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu Heydər Əliyev adına liseyin (“AzərNeftYağ” neft emalı zavodunun nəzdində) məzunudur.



## ƏLİZADƏ FƏRİD BƏYBALA OĞLU

632.679 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Masallı rayonu Qızılavar kənd orta məktəbinin məzunudur.



## SULTANOV AĞAMƏMMƏD SULTAN OĞLU

632.429 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Faydalı qazıntı yataqlarının işlənməsi” ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu T.İsmayılov adına Riyaziyyat-informatika təmayüllü məktəb-liseyin məzunudur.



## ŞAHMALIYEV MƏMMƏD OQTAY OĞLU

631.608 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Bakı ş. Nəsimi rayonu 211 saylı orta məktəbin məzunudur.



## HƏSƏNOV ELSEVƏR AFTANDİL OĞLU

630.804 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



## ƏLİYEV İSMAYIL QALİB OĞLU

630.179 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Samux rayonu Zazalı kənd orta məktəbinin məzunudur.



## MƏHƏRRƏMOVA GÖZƏL ƏLİ QIZI

629.858 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Gəncə şəhəri 31 saylı şəhər orta məktəbinin məzunudur.



## AĞAYEV TEYMUR SƏDAQƏT OĞLU

629.143 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Faydalı qazıntı yataqlarının işlənməsi” ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 272 saylı orta məktəbin məzunudur.



## MƏNSİMZADƏ AYGÜL FAZİL QIZI

628.893 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Biləsuvar rayonu 4 saylı şəhər orta məktəbinin məzunudur.

# I QRUP
## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### CƏBRAYILOV FƏRİD CAVANŞİR OĞLU

628.214 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Orta ümumtəhsil internat məktəbinin (əvvəlki 20 saylı orta məktəb) məzunudur.



### QULİYEV KAMAL CAVANŞİR OĞLU

627.946 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 29 saylı orta məktəbin məzunudur.



### ŞƏRİFLİ SEYMUR MEHMAN OĞLU

627.768 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 239 saylı orta məktəbin məzunudur.



### ƏLİYEV RƏŞAD ƏBÜLFƏZ OĞLU

627.411 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu Texniki-humanitar liseyin (keçmiş 147 saylı orta məktəb) məzunudur.



### ƏLİRZAYEV TƏVƏKKÜL QÜDRƏT OĞLU

627.321 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı Özəl Türk liseyinin Quba filialının məzunudur.



### XALIQOV RƏŞAD MƏMMƏDAĞA OĞLU

627.143 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Avtomatlaşdırma və informasiya texnikası(TEMPUS proqramı üzrə)" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



### İBRAHİMOVA SƏBİNƏ VALENTİN QIZI

626.964 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Bakı ş. Binəqədi rayonu 102 saylı orta məktəbin məzunudur.



### HƏSƏNOV ETİBAR AFTANDİL OĞLU

626.161 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



### XODAYEV MUSTAFA ELŞAD OĞLU

626.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Binəqədi rayonu 267 saylı orta məktəbin məzunudur.



### ALLAHVERDİYEV NAZİM FİZULİ OĞLU

625.893 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Abşeron rayonu Xırdalan qəsəbə 3 saylı orta məktəbinin məzunudur.



### EYVAZOV ELÇİN ƏLƏDDİN OĞLU

622.250 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



### SEYİDOVA KÖNÜL QƏRİB QIZI

621.714 balla Bakı Dövlət Universitetinin "Riyaziyyat" ixtisasına qəbul olub.
Qəbələ rayonu 1 saylı şəhər orta məktəbinin məzunudur.



## SÜLEYMANOV ARZU SAHİB OĞLU

620.321 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Goranboy rayonu Məşədiqarar kənd orta məktəbinin məzunudur.



## ƏSGƏROVA LƏMAN ABDULLA QIZI

619.143 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Bakı ş. Nəsimi rayonu 1 saylı orta məktəbin məzunudur.



## FƏTƏLİYEV ORXAN İLHAM OĞLU

618.750 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Laçın rayonu 18 saylı şəhər orta məktəbinin məzunudur.



## FƏRZƏLİYEV KƏNAN FAİQ OĞLU

618.571 balla Azərbaycan Dövlət Neft Akademiyasının “İnformatika və hesablama texnikası” ixtisasına qəbul olub.
